

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 249 (23.411)

*30 dekabr 2019-cu il, bazar ertəsi*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


### *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 29-da "Azərbaycan Dəmir Yolları" QSC tərəfindən paytaxtın Sabunçu rayonunun Pirşağı qəsəbəsində inşa edilən avtomobil tunelinin açılışında iştirak edib.

"Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov dövlətimizin başçısına görülən işlər barədə məlumat verib.

Sonra dövlətimizin başçısı tunelin rəmzi açılışını bildirən lenti kəsib.

* * *

Həmin gün Bakının Səbail rayonunun Badamdar qəsəbəsində "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin (ASC) yenidən qurulan 220/110/10 kilovoltluq "Müşfiq" və 110/35/10 kilovoltluq "Zabrat" yarımstansiyaları istifadəyə verilib.

Prezident İlham Əliyev tədbirdə iştirak edib.

"Azərenerji" ASC-nin prezidenti Baba Rzayev yarımstansiyalarda görülən yenidənqurma işləri barədə dövlətimizin başçısına məlumat verib.

Ölkə başçısı İlham Əliyev "Müşfiq" yarımstansiyasını işə salıb.

Daha sonra Prezident İlham Əliyev "Müşfiq" yarımstansiyasından SCADA Dispetçer İdarəetmə Sistemi vasitəsilə "Zabrat" yarımstansiyasını da işə salıb.



## "Dövlət adından yaradılan publik hüquqi şəxslərə dövlət büdcəsi hesabına məqsədli vəsaitlərin ödənilməsi Qaydası"nın təsdiq edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin

### Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Dövlət adından yaradılan publik hüquqi şəxslərə dövlət büdcəsi hesabına məqsədli vəsaitlərin ödənilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti dövlət adından yaradılan publik hüquqi şəxslərə dövlət büdcəsi hesabına məqsədli vəsaitlərin ödənilməsi üzrə müqavilənin nümunəvi formasını təsdiq etsin.

3. Bu Fərman 2020-ci il yanvarın 1-dən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 29 dekabr 2019-cu il*

## Naxçıvan teatrında "Teleskop" əsəri tamaşaya qoyulub





Dekabrın 29-da Naxçıvan Dövlət Musiqili Dram Teatrında Xalq yazıçısı Elçin Əfəndiyevin "Teleskop" əsəri əsasında hazırlanmış eyniadlı tamaşanın nümayişi olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tamaşaya baxmışdır.

Xalq yazıçısı Elçin Əfəndiyevin yüksək tirajlarla müxtəlif dillərə tərcümə olunmuş əsərləri Azərbaycanda, həmçinin dünyanın müxtəlif ölkələrində sevilərək oxunur, səhnələşdirilir. Onun yaradıcılığının ən səciyyəvi cəhətlərindən biri insanların daxili aləmini, onların mənəvi dünyasındakı ziddiyyətləri əsərlərinin əsas süjet xəttinə çevirməsidir. Müəllifin "Teleskop" tragikomediyası da bu baxımdan xüsusi qeyd olunmalıdır. İnsanın ölümü və bundan sonra baş verənlərin səhnə həllini tapdığı tamaşada hadisələr qeyri-real olanla real olanın müstəvisində təqdim olunur. Rejissor tamaşa boyu gərgin, psixoloji məqamlarda sevinc və məyusluq, yaşamaq, yoxsa ölmək sualının cavabını tamaşaçıların ixtiyarına buraxır.

Gənc rejissor Həcərxanım Məmmədovanın quruluş verdiyi tamaşanın rəssamı Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva, musiqi tərtibatçısı sənətşünaslıq üzrə fəlsəfə doktoru Natavan Qədimovadır. Xalq artistləri Rza Xudiyev, Həsən Ağasoy, Rövşən Hüseynov, Əməkdar artistlər Tofiq Seyidov, Əli Əliyev, aktyorlardan Zəminə Məmmədova, Nazlı Hüseynquliyeva, gənc



aktyorlar Səyyad Məmmədov, Anar Eyvazov, Səkinə Məmmədova, Heyran Abdullayeva və başqaları obrazların dili ilə qarşıya qoyulan əsas məqsədə nail olmuş, tamaşaçıya real dünya ilə əbədi dünyanın müqayisəsində həyat gerçəkliklərini çatdırmışlar.

Tamaşadan sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov səhnə arxasına keçərək yaradıcı heyətlə görüşmüşdür.

Ali Məclisin Sədri uğurlu tamaşa münasibətilə kollektivi təbrik edərək demişdir: Rejissor işi, aktyorların ifası, musiqi tərtibatı və digər bütün cəhətləri ilə "Teleskop" tamaşasını Naxçıvan teatrının səhnəsində oynanılan tragikomediyaların şahı hesab etmək olar. Bu tamaşa "Ölülər"dən sonra Naxçıvan teatrında oynanılan ən uğurlu səhnə əsəridir. Çünki "Ölülər"dən fərqli olaraq "Teleskop" əsərində real həyat gerçəklikləri müasir dövrə uyğun təqdim olunur.

Ali Məclisin Sədri demişdir: Bugünkü tamaşanın əsas uğurlarından biri də peşəkar heyətlə birlikdə gənclərin də üzərlərinə düşən vəzifəni layiqincə yerinə yetirməsi idi. İstər rejissor işində, istərsə də aktyorların ifasında bu, bir daha özünü təsdiq etdi. Naxçıvan teatrında bu cür tamaşaların nümayişi bir daha göstərir ki, ötən illər ərzində muxtar respublikada teatr sənətinin inkişafı ilə bağlı görülən işlər, çəkilən birgə zəhmət hədər getməmişdir. Teatr hər bir xalqın mədəni inkişafını göstərən birinci amildir. 130 ildən artıqdır ki, Naxçıvan teatrı da öz ənənələrini yaşadır və inkişaf edir.

Ali Məclisin Sədri bundan sonra da Naxçıvan teatrında uğurlu tamaşaların səhnəyə qoyulacağına əminliyini bildirmiş, tamaşanın rejissoruna və yaradıcı heyətinə təşəkkür etmiş, qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbriklərini çatdırmışdır.

"Naxçıvan teatrının bütün uğurlarının arxasında Ali Məclis Sədrinin yüksək diqqət və qayğısı dayanır. Yaradıcı kollektiv əldə olunanlara görə Ali Məclis Sədrinə minnətdardır", – deyən Xalq artisti Rza Xudiyev Ali Məclisin Sədrini qarşıdan gələn bayramlar münasibətilə Naxçıvan teatrının kollektivi, eləcə də onların timsalında muxtar respublikanın mədəniyyət işçiləri adından təbrik etmişdir.

Sonda xatirə şəkli çəkdirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Dövlət adından yaradılan publik hüquqi şəxslərə dövlət büdcəsi hesabına məqsədli vəsaitlərin ödənilməsi QAYDASI

**1. Ümumi müddəalar**

1.1. Bu Qayda Naxçıvan Muxtar Respublikasında dövlət adından yaradılan və bu Qaydanın 1.3-cü bəndinə uyğun olaraq müəyyən edilən bölgüdə nəzərdə tutulan publik hüquqi şəxslərin (bundan sonra – publik hüquqi şəxslər) dövlət sifarişi ilə dövlət büdcəsi hesabına təyinatlı tədbirlərin həyata keçirilməsi üçün məqsədli vəsaitlərin ödənilməsi ilə bağlı münasibətləri tənzimləyir.

1.2. Bu Qaydanın məqsədləri üçün təyinatlı tədbirlər dedikdə dövlət sifarişi əsasında publik hüquqi şəxslərin nizamnamələrinə uyğun olaraq həyata keçirdikləri işlər, layihələr, xidmətlər, proqramlar və s. başa düşülür.

1.3. Publik hüquqi şəxslərə dövlət büdcəsi hesabına ayrılan məqsədli vəsaitlərin (bundan sonra – vəsaitlər) yuxarı həddi qanunvericiliyə uyğun olaraq proqnozlaşdırılır və hər ilin dövlət büdcəsində nəzərdə tutulur. Vəsaitlərin publik hüquqi şəxslər üzrə bölgüsünü Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin hər ilin dövlət büdcəsi haqqında Naxçıvan Muxtar Respublikası qanunlarının tətbiqi barədə fərmanları ilə müəyyən edilmiş orqan (qurum) həyata keçirir.

1.4. Bu Qaydada istifadə olunan anlayışlar “Publik hüquqi şəxslər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda və digər normativ hüquqi aktlarda nəzərdə tutulan mənaları ifadə edir.

**2. Publik hüquqi şəxslərə vəsaitlərin ödənilməsi**

2.1. Vəsaitlərin ödənilməsi üçün dövlət orqanının (qurumun) tabeliyində yaradılan publik hüquqi şəxslə onun tabe olduğu orqan (qurum) arasında, belə orqan (qurum) olmadıqda isə bilavasitə publik hüquqi şəxslə Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi arasında, vəsaitlərin publik hüquqi şəxslər üzrə bu Qaydanın 1.3-cü bəndinə uyğun olaraq bölgüsü aparıldığı tarixdən 15 iş günü müddətində müqavilə bağlanılır.

2.2. Vəsaitlərin ödənilməsi şərtləri bu Qaydaya uyğun olaraq bağlanmış müqavilə əsasında müəyyənləşdirilir. Həmin müqavilə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi nümunəvi formaya uyğun tərtib olunur.

2.3. Müqavilədə aşağıdakı məsələlər əks etdirilir:

2.3.1. müqavilənin predmeti;

2.3.2. tərəflərin hüquq və öhdəlikləri, o cümlədən publik hüquqi şəxsin həyata keçirəcəyi təyinatlı tədbirlərin dairəsi;

2.3.3. publik hüquqi şəxsin dövlət büdcəsindən ayrılan vəsaitdən istifadəsi barədə hesabatlılığın forması;

2.3.4. tərəflərin məsuliyyəti və onların qarşılıqlı razılığı əsasında digər şərtlər.

2.4. Vəsaitlərin ödənilməsi müvafiq büdcə ilini – yanvarın 1-dən dekabrın 31-dək olan müddəti əhatə edir.

2.5. Vəsaitlərin ödənilməsi qanunvericiliyə uyğun olaraq rüblər və aylar üzrə bölgü nəzərə alınmaqla aparılır.

2.6. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi maliyyələşməni publik hüquqi şəxsin və ya publik hüquqi şəxsin tabe olduğu dövlət orqanının (qurumun) təqdim etdiyi sifariş sənədləri əsasında, rüblər və aylar üzrə bölgü nəzərə alınmaqla aparır və maliyyələşdirilmiş vəsait müqavilə əsasında publik hüquqi şəxsin bank hesabına köçürülür.

2.7. Publik hüquqi şəxslərin dövlət büdcəsi hesabına müqavilə əsasında həyata keçirdikləri tədbirlər üzrə xərclər bu məqsədlər üçün dövlət büdcəsində nəzərdə tutulmuş vəsaitdən çox olmamalıdır.

2.8. Ödənilmiş vəsaitlər publik hüquqi şəxslər tərəfindən təyinatı üzrə istifadə olunmalıdır.

**3. Publik hüquqi şəxslərə ödənilmiş vəsaitlərin istifadəsinə nəzarət və hesabat**

3.1. Vəsaitlərin təyinatı üzrə istifadə edilməsinə nəzarət qanunvericiliyə uyğun olaraq həyata keçirilir.

3.2. Publik hüquqi şəxslər alınan vəsaitlərdən istifadə barədə aylıq, rüblük və ilin əvvəlindən artan yekunla funksional, iqtisadi və inzibati təsnifat üzrə hesabatları qanunvericiliyə uyğun olaraq tərtib və təqdim edirlər.

---

*“Ailə təsərrüfatları ili”– 2019*

## Ailə təsərrüfatı ili bizə nə qazandırdı

*Son dövrlər dünya iqtisadiyyatı üçün aktuallıq kəsb edən anlayışlardan biri və ya daha qabarıq şəkildə desək, birincisi, məhz ailə təsərrüfatlarıdır. Bu anlayışı qlobal miqyasda aktual edən səbəb isə çoxdur. Bunlara sürətli templə artan əhali sayını, buna uyğun olaraq artan tələbatı, tələbatı ödəmək üçün artan əkin sahələrini, resursların məhdudluğunu və bir çox nümunələri göstərmək olar.*

*Bu baxımdan ailə təsərrüfatları bir çox dünya ölkələri üçün iqtisadi və sosial problemlərin həlli istiqamətində əhəmiyyətli çəkiyə malikdir.*



Mahiyyəti tarixboyu öz təsdiqini tapmış və hər kəsə tanış olan bir ifadə var – ailə kiçik dövlətdir. Məhz bu səbəbdəndir ki, ailələrin möhkəm, sağlam təməllər üzərində formalaşması, sosial rifahının yaxşılaşdırılması dövlətimizin marağındadır. Aztəminatlı ailələrin ehtiyaclarının əsaslı surətdə ödənilməsi, hər bir vətəndaşın sosial müdafiəsi istiqamətində həyata keçirilən ardıcıl tədbirlər ölkəmizdə həyat səviyyəsinin əhəmiyyətli dərəcədə yüksəlməsini təmin edib. Yəni ailənin rahat yaşaması üçün ölkəmizdə vacib olan bütün iqtisadi və sosial məsələlər ardıcıl şəkildə reallaşdırılır.

Lakin etiraf edək ki, yaşadığımız dövrdə ailələrin öz bacarıq və imkanlarından səmərəli istifadə edərək təsərrüfatlarını formalaşdırması zərurətə çevrilmişdir. Sadə dillə desək, dövlət maraqlıdır ki, ailə daha çox qazansın, gəlir əldə etsin, ölkəsinin inkişafına töhfə versin. Məşhur Çin mütəfəkkiri Konfutsinin “Mənə balıq vermə, mənə balıq tutmağı öyrət” fikri qeyd olunan məsələnin mahiyyətini tam açır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən 2019-cu ilin muxtar respublikamızda “Ailə təsərrüfatları ili” elan olunması bu sahənin yeni inkişaf mərhələsinə qədəm qoymasına şərait yaratmışdır. Ardınca Ali Məclis Sədrinin 2017-ci il 22 noyabr tarixli Sərəncamında verilmiş tapşırıqların icrasının davamlılığını təmin etmək məqsədilə 2019-cu il 18 yanvar tarixli Sərəncamla “Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planı” təsdiq edilmişdir.

Tədbirlər Planında aid təşkilatlara verilmiş tapşırıqların icrası il ərzində müsbət nəticələrin qazanılmasına səbəb olmuşdur. Belə ki, bu il muxtar respublikada qeydə alınmış ailə təsərrüfatlarının sayı 44 mini ötmüşdür. Cari ildə istehsal və emal fəaliyyəti ilə məşğul olan ailə təsərrüfatlarının sayında da əhəmiyyətli artım müşahidə olunmuşdur. Belə ki, 1 yanvar 2019-cu il tarixə bu istiqamət üzrə ailə təsərrüfatlarının sayı 525 idisə, ilin yekunlarına əsasən bu göstərici minə yaxın olmuşdur. İlin 9 ayında ailə təsərrüfatlarında 1 milyon 220 min kiloqrama yaxın məhsul istehsal edilmiş və onun 1 milyon 30 min kiloqramdan artığı satılmışdır.

Ailə təsərrüfatlarının balansında 2017 hektar əkin sahəsi mövcuddur ki, bu da 1 yanvar 2019-cu il tarixə olan göstərici ilə müqayisədə 845 hektar çoxdur. Bu dövr ərzində iribuynuzlu heyvanların sayı 3522 baş artımla 8003, xırdabuynuzlu heyvanların sayı 11084 baş artımla 39818, quşların sayı 10170 baş artımla 24666 baş təşkil etmişdir. Hazırda bu təsərrüfatlarda mövcud arı ailələrinin sayı 8017 ədəd təşkil edir ki, bu da 1 yanvar 2019-cu il tarixə olan göstərici ilə müqayisədə 6673 ədəd çoxdur. Həmçinin təsərrüfatların sahib olduğu müxtəlif təyinatlı texnikaların sayı isə 83 ədəd təşkil edir.

Ailə təsərrüfatlarının fəaliyyətinin stimullaşdırılması məqsədilə il ərzində həyata keçirilən mühüm tədbirlərdən biri də artıq muxtar respublikada ənənə halını almış festivallar oldu. Yola salmaqda olduğumuz ildə keçirilən “Ailə təsərrüfatı məhsulları” festivalında əvvəlki illərlə müqayisədə daha yüksək göstəricilərin əldə olunması bu sahəyə marağın artdığını deməyə əsas verir. Naxçıvan şəhərində noyabr ayında keçirilən festivalda muxtar respublika üzrə 408 ailə təsərrüfatı tərəfindən 556 növdə məhsul çıxarılmış, 150 min manat dəyərində məhsul satılmışdır. “Göycə”, “Arıçılıq məhsulları-bal”, “Kətə” festivalları da daxil olmaqla, ümumilikdə, il ərzində keçirilən festivallarda 765 min manatdan artıq ailə təsərrüfatları məhsullarının satışı təmin edilmişdir. Bundan əlavə, muxtar respublikada keçirilən müxtəlif satış yarmarkalarda ailə təsərrüfatları məhsullarına üstünlük verilməsi, iri ticarət mərkəzlərində, mağazalarda, kənd xidmət mərkəzlərində ailə təsərrüfatları üçün ayrıca bölmələrin yaradılması bu məhsulların satışı və təbliğatı üçün əlverişli şərait formalaşdırmışdır.






Əvvəlki illərdən fərqli olaraq festivalların əhatə dairəsi daha da genişləndirilmiş, cari ildə Naxçıvan şəhəri ilə yanaşı, muxtar respublikanın bütün rayonlarında da “Ailə təsərrüfatı məhsulları” festivalları keçirilmişdir. Həyata keçirilən bu tədbirlərin nəticəsidir ki, artıq muxtar respublikanın şəhər və rayonlarında fəaliyyət göstərən ailə təsərrüfatları arasında güclü rəqabət mühiti formalaşmaqdadır.

Muxtar respublikanın şəhər və rayonları ilə yanaşı, ucqar dağ kəndlərinin də sosial problemlərinin həlli istiqamətində zəruri tədbirlər görülmüş, yeni yollar çəkilmiş, kompleks quruculuq işləri aparılmışdır. Bütün bunlar isə kənddə məskunlaşmanı artırmışdır. “Ailə təsərrüfatları ili” də muxtar respublikada kənd əhalisinin öz torpağına bağlılığına geniş töhfə verdi. Öz təsərrüfatını yaratmaq və ya genişləndirmək məqsədilə 87 ailə təsərrüfatı 820 min manata yaxın güzəştli kreditlərlə təmin edildi.

Bu gün ailə təsərrüfatlarının ən mühüm və səciyyəvi cəhətlərindən biri də onların iqtisadi inkişafı xarakterizə edən ərzaq təhlükəsizliyinə verdikləri töhfələrdir. Artıq muxtar respublikada istehsal olunan məhsulların ümumi çəkisində ailə təsərrüfatlarının payı ilbəil artır. Nəticədə, süfrələrimizi keyfiyyətli, təbii, münasib qiymətə satılan dadlı məhsullar bəzəyir.



Digər bir tərəfdən, keyfiyyətli ailə təsərrüfatı məhsullarının standartın tələblərinə uyğun qablaşdırılması (bu işi də dövlət öhdəsinə götürüb) onlara daxili bazarla yanaşı, ölkə və xarici bazarlarda da böyük marağın yaranmasına səbəb olub. Yəni ailə təsərrüfatlarının ixrac imkanları formalaşıb ki, bu da böyük iqtisadi səmərə deməkdir.

Ailə təsərrüfatları ilində təsərrüfatlara göstərilən diqqət və qayğının bariz nümunələrindən biri də Naxçıvan Muxtar Respublikası Ailə təsərrüfatları İctimai Birliyinin yaradılması oldu. Birliyin yaradılmasında məqsəd isə muxtar respublikada fəaliyyət göstərən ailə təsərrüfatlarının birgə koordinasiyasını təmin etmək, ayrı-ayrı təsərrüfatların mövcud problemlərinə dair qərarlar qəbul etməklə aidiyyəti təşkilatlarla bunları müzakirə etmək, ailə təsərrüfatlarında planlı fəaliyyəti təmin etməkdən ibarət idi.

“Ailə təsərrüfatları ili”ndə həyata keçirilən genişmiqyaslı tədbirlərin bəhrələri isə yaxın gələcəkdə özünü büruzə verəcəkdir. Bu günün ailə təsərrüfatları sabah dayanıqlı, güclü sahibkar kimi öz fəaliyyətləri ilə dövlətimizin iqtisadi inkişafına töhfələrini verəcəklər. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sözləri ilə desək, ***“Sahibkarlığın inkişafının bir yolu da ailə təsərrüfatlarının fəaliyyətini dəstəkləməkdən keçir. Çünki ailə təsərrüfatları həm yerli istehsalın həcminin artmasına və özünüməşğulluğun təmin olunmasına, həm də kiçik və orta sahibkarlığın inkişafına böyük təkan verir”.***

**Nəticə**

Ailələrin öz bacarıq və imkanlarını şəxsi təsərrüfatlarının inkişafı istiqamətində səfərbər etməsi, ilk növbədə, məhsul istehsalının həcmini və çeşidini xeyli artırıb, yeni müəssisələr yaranıb, ailə büdcələrinin gəliri çoxalıb, iş yerləri açılıb və məşğulluq təmin edilib. Təbii ki, müəssisə gəlirləri hesabına büdcəyə vergidən daxilolmaların həcminin artması, ümumilikdə, vətəndaşların sosial-rifahının daha da gücləndirilməsinə, əməkhaqlarının artırılmasına şərait yaradıb. Yaxşılaşan maddi vəziyyət, artan gəlirlər ailə təsərrüfatlarının sahibkarlıq subyektlərinə çevrilməsinə imkan verib.

Bir-birini stimullaşdıran bu zəncirvarı proseslərin siyahısını daha da uzatmaq olar. Ancaq bütün bu proseslərin bir məqsədi var: o da iqtisadiyyatı daha da gücləndirməkdir. Ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi: ***“İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir”.***

***P.S. Yaradılan hər bir ailə təsərrüfatı ailə üzvlərinin ehtiyaclarını təmin etməklə yanaşı, bu ailədə uşaqların daha sağlamdüşüncəli mühitdə böyüməlarinə şərait yaradır, onlara halal zəhmətlə gəlir əldə etmək bacarıqlarını aşılayır, həmçinin gələcək üçün maddi təminat qismində yaxşı miras sayılır.***

**Elçin ƏLİYEV**
*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının İqtisadiyyat şöbəsinin müdiri*

*30 dekabr Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin yaranması günüdür*

## Muxtar respublikada fövqəladə hallara hazırlıq diqqət mərkəzindədir



*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 30 dekabr tarixli Fərmanına əsasən Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyi yaradılmışdır.*

Ümummilli liderimiz Heydər Əliyevin ***"Bir hadisənin qarşısını almaq, o hadisə baş verəndən sonra onun nəticələrini aradan götürməkdən daha asandır"*** müdrik fikri əsas götürülərək Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi fövqəladə halların qarşısının alınması, istehsal və sosial təyinatlı obyektlərin, yeraltı və yerüstü sərvətlərin yanğınlardan qorunması, eləcə də tikintidə, sənayedə və dağmədən işlərində texniki təhlükəsizliyin təmin edilməsi sahələrində qarşıya qoyulmuş vəzifələri yerinə yetirməyə çalışır. Nazirliyin maddi-texniki bazası ötən dövrdə əhəmiyyətli dərəcədə möhkəmləndirilmiş, peşəkar şəxsi heyət formalaşmışdır. Bu gün muxtar respublikada mülki müdafiə, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması, yanğın təhlükəsizliyinin, su hövzələrində və tikintidə insanların təhlükəsizliyinin, eləcə də sənayedə texniki təhlükəsizliyin təmin olunması sahələrində məqsədyönlü tədbirlər həyata keçirilir. Nazirliyin əməkdaşları fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılmasında fədakarlıq nümayiş etdirirlər.

Muxtar respublikada aparılan quruculuq işləri Fövqəladə Hallar Nazirliyini də əhatə etmiş, nazirliyin müvafiq qurumları üçün müasir iş və xidmət şəraiti yaradılmışdır. 2012-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə nazirliyin inzibati binasının açılışı olmuşdur. Bundan başqa, 2007-ci ildə Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi və Naxçıvan Şəhər Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin inzibati binası və texniki qarajları yenidən qurularaq fəaliyyətə başlamış, 2009-cu ildə Kəngərli, Şahbuz, Ordubad, 2013-cü ildə Şərur və Babək, 2014-cü ildə isə Sədərək rayon şöbələrinin inzibati binaları və texniki qarajları tikilərək istifadəyə verilmişdir. Ötən dövrdə Mülki Müdafiə Alayının maddi-tədris bazasının təkmilləşdirilməsi də diqqət mərkəzində saxlanılmış, bu məqsədlə təlim mərkəzi istifadəyə verilmişdir. Həyata keçirilən quruculuq tədbirləri çərçivəsində şəxsi heyətin yaşayış və mənzil şəraitinin yaxşılaşdırılması da diqqət mərkəzində saxlanılmış, ölkə Prezidentinin iştirakı ilə Naxçıvan şəhərində zabit-gizir ailələri üçün 48 mənzilli yaşayış binası istifadəyə verilmişdir. Həmçinin bu günə kimi Mülki Müdafiə Alayına, Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi və onun yerli qurumlarına müxtəlif təyinatlı yanğınsöndürmə avtomobilləri və nəqliyyat vasitələri, 2010-cu ildə isə xidmətə vertolyot verilmiş, Mülki Müdafiə Alayında və Batabat qoruğu ərazisində uçuş-enmə meydançaları hazırlanmışdır.

Nazirliyin mərkəzi aparatının və struktur qurumlarının ixtisaslı kadrlarla komplektləşdirilməsi və peşəkarlığının artırılması istiqamətində də mühüm tədbirlər görülmüşdür. Əməkdaşlar Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyasına, Bakı Yanğın-Texniki Kollecinə, Ukrayna Respublikasının Xarkov şəhərindəki və Belarusiya Respublikasının Minsk şəhərindəki akademiyalara təhsil almağa göndərilmişlər. Bu iş cari ildə də davam etdirilərək ehtiyatda olan 1 zabit, 17 hərbi vəzifəli və 1 qadın hərbi qulluqçu xidmətə, 10 nəfər mülki şəxs yanğın təhlükəsizliyi orqanlarında qulluğa qəbul edilmiş, Belarusiya Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Mühafizə Universitetini bitirmiş 1 zabit müvafiq vəzifəyə təyin edilmişdir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 17 mart tarixli Sərəncamına əsasən "Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar atlası" hazırlanaraq nəşr olunub. 6 bölmədən ibarət olan atlasda təbii resurslardan səmərəli istifadə, əhalinin, yaşayış məntəqələrinin, sənaye və kənd təsərrüfatı müəssisələrinin, qaz kəmərlərinin, kommunikasiya xətlərinin, digər infrastruktur obyektlərinin mühafizəsi, təbii fəlakətlərin, texnogen qəzaların qarşısının alınması və nəticələrinin aradan qaldırılması üzrə tədbirlərin praktik olaraq planlaşdırılması və həyata keçirilməsi müəyyən edilmişdir. Eyni zamanda atlasda muxtar respublikanın sosial-iqtisadi inkişafı ilə bağlı göstəricilər, infrastruktur obyektləri barədə məlumatlar, müxtəlif miqyaslı inzibati və coğrafi xəritələr verilmişdir. Bir sözlə, "Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar atlası" fövqəladə hallar orqanlarının əməkdaşlarının işinə köməklik edən və mühüm elmi əhəmiyyətə malik olan sənəddir.

Bu gün Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsi tərəfindən tikinti materiallarının dövlət standartlarının tələblərinə cavab verməsinin yoxlanılması və həmin sahə üzrə dövlət nəzarətinin həyata keçirilməsi diqqət mərkəzində saxlanılır. Bundan başqa, əhalinin ehtimal olunan radioaktiv, kimyəvi zəhərlənmələrdən mühafizəsinin təşkilində operativliyi təmin etmək məqsədilə müvafiq tədbirlər görülmüş, bu sahədə maddi-texniki baza gücləndirilmişdir. Həmçinin muxtar respublikada taxılın saxlanma şəraiti, yanğın və texniki təhlükəsizlik məsələləri mütəmadi olaraq yoxlanılır. Cari ildə tikintisi başa çatdırılmış 47 obyektin istismara hazırlığı yoxlanılmış, 159 sayda tikinti materialları nümunələrinin laboratoriya şəraitində sınaqdan keçirilməsi təmin edilmişdir.

2019-cu ildə muxtar respublikada mülki müdafiə işinin təşkili ilə bağlı 5 obyektdə taktiki-xüsusi təlim, 4 obyektdə məşğələ, 5 obyektdə konfrans və 2 uşaq bağçasında tədbir keçirilmiş, 183 obyektdə, 136 ümumtəhsil məktəbində mülki müdafiə işinin təşkili vəziyyəti yoxlanılmışdır. Həmçinin bu il yanğın təhlükəsizliyinin təmin edilməsi məqsədilə 1920 obyektdə əsaslı, 2217 obyektdə nəzəri, 788 obyektdə məqsədli yoxlamalar keçirilmiş, yanğın-partlayış təhlükəli 50 obyektdə, 38 istehsalat müəssisəsində, kütləvi insan toplaşan 44 obyektdə, təhsil, səhiyyə və mədəniyyət müəssisələrində, məktəbəqədər tərbiyə müəssisələrində yanğın-texniki müayinələr aparılmışdır.

2019-2020-ci illərin payız-qış mövsümünə hazırlıqla bağlı muxtar respublika üzrə 758 qazanxananın texniki və yanğın təhlükəsizliyi vəziyyəti yoxlanılmış, 314 nəfər mövsümi işçinin ocaqçı-maşinist kurslarına cəlb olunması təmin edilmişdir. Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi və onun yerli qurumları Dövlət Sığorta Agentliyinin nümayəndələri ilə birgə 905 obyektin yanğından icbari sığortalanmasına nail olmuşdur.

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin şəxsi heyəti bundan sonra da fəaliyyətini qarşıya qoyulan tələblər əsasında quracaq, əhalinin və ərazilərin təhlükəsizliyi naminə təxirəsalınmaz tədbirləri uğurla yerinə yetirəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

## Növbəti buraxılış mərasimi keçirilib

Naxçıvan Qarnizonunda gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kurslarının növbəti buraxılış mərasimi keçirilib. Mərasimdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra polkovnik Mehman Gülməmmədov bildirib ki, kursları uğurla başa vuran məzunlar Əlahiddə Ümumqoşun Ordunun, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının, Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayının hissə və bölmələrində xidmətə başlayacaqlar.

Qeyd olunub ki, kursantlara tədris dövründə nəzəri, praktik dərslər və qoşun təcrübəsi keçirilib. Tədrisdə əsas diqqət ordumuzun arsenalına qəbul olunmuş yeni silahların və hərbi texnikaların dərindən öyrənilməsinə, müasir silah növlərinin döyüş şəraitində bacarıqla istifadə edilməsinə yönəldilib.

Naxçıvan Qarnizonunun rəisi, general-leytenant Kərəm Mustafayevin təbrikini şəxsi heyətə çatdıran general-mayor Fazil Ağalarov bildirib ki, hazırda Silahlı Qüvvələrimizdə hərbi qulluqçuların peşəkarlıq səviyyəsinin yüksəldilməsi qarşımızda duran vacib məsələlərdəndir. Bu gün peşəkar hərbi qulluqçu kimi buraxılış mərasimi keçirilən gizirlərin və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığının müasir tələblər səviyyəsində olması ordumuzun uğurlarındandır.

Təbrik oxunduqdan sonra kursu müvəffəqiyyətlə bitirən məzunlara sertifikat və hədiyyələr təqdim edilib, nümunəvi xidməti ilə fərqlənən hərbi qulluqçular mükafatlandırılıblar.

Xatirə lövhələrinə buraxılış emblemləri vurulub və məzunların tribuna önündən təntənəli keçidi olub.

Sonda məzunlarla xatirə şəkli çəkdirilib.

**Kənan CƏLİLOV**

## İlin yekunları və qarşıda duran vəzifələr müzakirə olunub



Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsində keçirilən kollegiya iclasında komitənin sədri Əsgər Əsgərov çıxış edərək bildirib ki, 2019-cu il ərzində də komitənin kollektivi tərəfindən meliorasiya və irriqasiya işlərinin miqyası artırılaraq bütün mövcud imkanlar səfərbər edilib, istismar, təmir və tikinti işləri həyata keçirilib.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən və 303,5 milyon kubmetr sututumuna malik olan sututarlarına 291,4 milyon kubmetr su ehtiyatı toplanıb. Su istifadəçilərinə mexaniki üsulla və öz axını ilə 271 milyon kubmetr suvarma suyu verilib, təkrar suvarma nəzərə alınmaqla, 228 min 816 hektar torpaq sahəsi su ilə təmin olunub. Hazırda sututarlarda 100,5 milyon kubmetr su ehtiyatı vardır.

Komitə sədri diqqətə çatdırıb ki, muxtar respublikada torpaq sahələrində su təminatının yaxşılaşdırılması üçün mühüm tədbirlər həyata keçirilib. Rentabelli suvarma şəbəkələrinin qurulmasına, mütərəqqi suvarma metodlarının tətbiqinə üstünlük verilib. Belə ki, Kəngərli rayonunun Yurdçu kəndi ərazisində 176, Şahbuz rayonunun Türkeş kəndi ərazisində 343 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisi başa çatdırılıb. Görülən işlərin davamı olaraq Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 700 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisinə başlanılıb.

Kanalların və arxların sukeçirmə qabiliyyətini artırmaq, su itkilərini aradan qaldırmaq üçün davamlı olaraq lildən təmizləmə işləri yerinə yetirilib, təmir-bərpa və tikinti işləri həyata keçirilib, arxlarda yenidənqurma işlərinin aparılması, yeni arxların qazılıb istifadəyə verilməsi diqqət mərkəzində saxlanılıb. Torpaqların şoranlaşmasının qarşısını almaq məqsədilə drenaj kanalları və kollektorlar lildən təmizlənib, yeni drenaj kanalları qazılıb.

Qeyd olunub ki, torpaq sahələrini sel sularının zərərli təsirindən qorumaq məqsədilə Arpaçay, Naxçıvançay, Cəhriçay, Vənəndçay vadilərində, Qahab və Sirab selovları daxil olmaqla, muxtar respublika ərazisində çay və selovlarda, ümumilikdə, 14,8 kilometr selə qarşı istiqamətləndirici bənd salınıb.

Komitə sədri içməli su təminatı, həmçinin yeni boru xətlərinin çəkilməsi, onların təmir olunması, subartezian quyularının qazılması, nasos stansiyalarının tikintisi, kəhrizlərin bərpası ilə bağlı görülən işlərdən də danışıb.

"Rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi çərçivəsində 2019-cu ildə Şərur rayonunun Zeyvə və Düdəngə kəndlərində içməli su sisteminin tikintisi başa çatdırılıb, 40,5 kilometr xətt çəkilib, 1100 ev birləşməsi aparılıb, 7300 nəfər sakin fasiləsiz içməli su ilə təmin edilib", – deyən Əsgər Əsgərov beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onbirinci sessiyasında qarşıya qoyulan vəzifələrin vaxtında və keyfiyyətlə yerinə yetirilməsi üçün yaradılmış şəraitdən səmərəli istifadə olunacağını bildirib.

Məruzə ətrafında çıxışlar olub.

* * *



*Naxçıvan Beynəlxalq Hava Limanında keçirilən iclası direktor Mənsur Gülməmmədli açıb.*

Bildirilib ki, Ali Məclis Sədrinin göstərdiyi dövlət qayğısı sayəsində hava limanı son illərdə, eləcə də 2019-cu il ərzində böyük inkişaf yolu keçib. Belə ki, bu ilin ilk yarısında muxtar respublika əhalisinə xidmətin asanlaşdırılması məqsədilə Şahbuz şəhərində müasir aviakassa binası istifadəyə verilib. Cari ildə hava limanı üçün ən vacib və səmərəli layihələrdən biri köhnə asfalt örtüklü uçuş-enmə zolağının yenidən qurulması və tikintisi olub. Uzunluğu 3300, eni 60 metr olan uçuş-enmə zolağı enmə sistemləri, işıq-siqnal sistemi, yan təhlükəsizlik, son tormozlama zolaqları, meteoroloji avadanlıqlar və digər qurğularla təmin edilib. Radiomayak qlissada sisteminin quraşdırma işləri, transformatorların yerləşdirilməsi, kabel xətlərinin çəkilişi yekunlaşmaqdadır. Yeni uçuş-enmə zolağında uçuşların təhlükəsizliyinin təmin edilməsi məqsədilə yeni quşqovucu sistemin quraşdırılması nəzərdə tutulur. TS – 1 yanacağının qəbulu və səmərəli istifadəsi sahəsində də mühüm işlər görülüb, 200 min litr tutumu olan yeni qəbul çəni quraşdırılıb istismara verilib. Yanacaq-sürtkü materialları sahəsinin çökmüş və sıradan çıxmış asfalt qatı götürülüb, yeni, keyfiyyətli asfalt qatı qoyulub, əlavə olaraq bütün yol tamamilə asfaltlanıb.

Qeyd olunub ki, uçuşların təhlükəsizliyinin təmin olunması istiqamətində ayrı-ayrı xidmət sahələrinin maddi-texniki bazası möhkəmləndirilib. Aviasiya təhlükəsizlik tədbirləri çərçivəsində karqo terminalına yeni şəbəkə videoqeydedici qurğular, nəzarət buraxılış məntəqəsinə rentgen təftiş sistemi quraşdırılıb, hava limanı ərazisinə perimetr boyu 36 ən son texnologiya ilə çalışan termal kameralar quraşdırılması işləri davam etdirilir. Hava limanında, o cümlədən aviakassalarda uzunmüddətli enerji kəsintilərinin qarşısını almaq məqsədilə avtomatik işədüşən generatorlar quraşdırılıb, enerji təchizatında gərginliyi tənzimləmək üçün müxtəlif növ requlyatorlar alınaraq istismara verilib.

Diqqətə çatdırılıb ki, hava gəmilərinə qulluq, sərnişin və yükün daşınmasında xidmətin yüksək səviyyədə təşkil edilməsi, təhlükəsizlik tədbirlərinin hərtərəfli artırılması, ayrı-ayrı xidmət sahələrinin zəruri texniki vasitələrlə təmin edilməsi cari ildə qarşıya qoyulmuş ən başlıca vəzifələrdən olub. İl ərzində yerli hava xətləri ilə 2 min 146 reys edilib, 308 min 249 sərnişin, 4 milyon 899 min 681 kiloqram baqaj, 912 min 629 kiloqram yük, 53 min 892 kiloqram poçt daşınıb. Beynəlxalq daşımalarda isə 140 reys həyata keçirilib. Naxçıvan-İstanbul istiqamətində 4 min 249 sərnişin, eləcə də 58 min 496 kiloqram baqaj, Naxçıvan-Moskva istiqamətində 4 min 128 sərnişin, 77 min 249 kiloqram baqaj daşınıb.

Sonra məruzə ətrafında çıxışlar olub.

**Xəbərlər şöbəsi**

# 2019-cu ilin quruculuq ərməğanları

## Müasir təhsil ocaqları



Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin yeni tədris kompleksi



Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbi üçün yeni tədris kompleksi



Naxçıvan şəhər 5 nömrəli tam orta məktəb



Şərur rayon Muğanlı kənd tam orta məktəbi



Babək rayon Gülşənabad kənd ümumi orta məktəbi



Şahbuz rayon Türkeş kənd tam orta məktəbi



Kəngərli rayon Böyükdüz kənd tam orta məktəbi



Şərur rayon Kərimbəyli kənd tam orta məktəbi



Ordubad rayon Dəstə kənd tam orta məktəbi



Babək rayon Kültəpə kənd tam orta məktəbi


ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Pərviz Hacılı

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 890